| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənn** | **ECON 101 İqtisadiyyata giriş** - 3KU credits (6ECTS) |
| | **Departament** | İqtisadiyyat və Menecment |
| | **Proqram** | Bakalavr |
| | **Semestr** | 2024/25-ci tədris ilinin payız semestri |
| | **Müəllim** | Həsən Rəhimli |
| | **E-mail** | hasan.rahimli@khazar.org |
| **Prerekvizitlər** | Yox | |
| **Dil** | Azərbaycan | |
| **Icbari/Seçmə** | İcbari | |
| **Dərsliklər və kurs materialları** | **Əsas ədəbiyyat:**<br>1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014.<br>2. H.Rəhimli. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları.<br>**Əlavə ədəbiyyat:**<br>3. N.Kishtainy. “İqtisadiyyatın qısa tarixi”. 2021.<br>4. K.Keys, R.Feyr, Ş.Oster**.** “Mikroiqtisadiyyatın əsasları”. Pearson, 2017.<br>5. Alfred Mill. “Ekonomi 101”. 2016.<br>6. Campbell R. McConnell, Stanley L. Brue, Sean M. Flynn. “Economics: principles, problems, and policies”. 2009<br>7. E.Alkin. “Herkes için ekonomi”. İstanbul, 2009.<br>8. Edmund Conway. “50 Economics Ideas You Really Need to Know”. 2009.<br>9. F.Rəsulov, Q.İbadoğlu. **“**İqtisadiyyatın Əsasları”. Bakı, 2004.<br>10. J.Harvey. “Müasir ekonomiks”. Bakı, 2001.<br>11. N. Emrah Aydınonat. “İktisat nedir? İktisat üzerine söyleyişler”. İstanbul, 2017<br>12. Z.Dinler. “İktisada giriş”. 2020.<br>13. E.Ünsal. “Mikro İktisat”. Ankara, 2014.<br>14. E.Ünsal. “Makro İktisat”. Ankara, 2009.<br>15. Mahfi Eğilmez. “Ekonomi politikası”. 2004.<br>16. Mahfi Eğilmez. “Ekonomide analiz”. 2016.<br>17. Mahfi Eğilmez. “Ekonominin temelleri”. 2019.<br>18. Mahfi Eğilmez. “Örneklerle kolay ekonomi”. 2014.<br>19. Мария Бойко. “Азы экономики”. 2015. | |
| **Kursun təsviri** | Milli təhsil sisteminin beynəlxalq təhsil sisteminə uyğunlaşdırılması, tələbə mobilliyinin artırılması, tələbələrin müvafiq kompetensiyalarının formalaşdırılması, məzunların əmək bazarının tələblərinə cavab verməsi, tələbələrin daha çox sərbəst işləmələrinin stimullaşdırılması və s. məqsədilə Təhsil nazirinin 9 iyul 2020-ci il müvafiq əmri ilə təsdiq edilmiş “İqtisadiyyat və idarəetmə” ixtisasları qrupuna daxil olan ixtisaslar üzrə yeni təhsil proqramına əsasən ali məktəblərin bütün iqtisad yönlü ixtisaslarında baza iqtisadi fənlərə hazırlıq məqsədi daşıyan “İqtisadiyyata giriş” fənni tədris edilir. Bu fənndə mühüm iqtisadi anlayışlar izah edilir, bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir, məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir, iqtisadi subyektlərin qərar qəbul etməsini şərtləndirən prinsiplər açıqlanır. İqtisadiyyata giriş fənni əsas etibarı ilə tələbələrdə iqtisad elminin əsas anlayışlarını dərk etməyə, iqtisadi təhlil metodologiyasından istifadə etməyə, makro və mikroiqtisadiyyatın əsaslarını təhlil, tətbiq və dərk etməyə imkan verir. Tələbələr iqtisada giriş fənninin tədris edilməsi ilə birlikdə sonrakı kurslarda iqtisad ixtisası ilə əlaqəli tədris olunacaq digər fənlərə fundamental hazırlıq əldə etmiş olurlar. Bu fənnlə birlikdə iqtisadi prosesləri həm sözlərlə, həm də riyazi və həndəsi olaraq ifadə etməyi öyrənirlər. İqtisadiyyata giriş kursunda iqtisadi seçim ideyasından başlayaraq, alternativ dəyər, bazarların işləmə mexanizmi, iqtisadi subyektlərin davranışları, bazar uğursuzluqları, makroiqtisadi problemlər, dövlətin iqtisadi siyasəti və s. qədər ekonomiksin bir çox mövzuları üzrə təməl biliklər verilməsi nəzərdə tutulmuşdur. | |
| **Kursun məqsədi** | Kursun əsas məqsədi tələbələrə iqtisadi analizin əsas anlayışlarını və alətlərini öyrətməkdir. Ümumi olaraq, tələbələrdə real dünyanın problemlərinə “iqtisadi” yanaşma və təfəkkür bacarığının formalaşdırılmasıdır. Kurs boyunca iqtisadiyyata giriş, mikroiqtisadiyyat və makroiqtisadiyyat haqqında əsas anlayış və prinsiplər öyrədiləcək, müasir iqtisadi biliklərin mənimsənilməsi üçün vacib hesab edilən iqtisadi anlayış, kateqoriya, hadisə və qanunların şərhi veriləcəkdir. İqtisadiyyata giriş fənninin tədrisi iqtisadi nəzəriyyənin əsaslarını, | |

| | |
|---|---|
| | müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri, fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini və makroiqtisadi terminologiyanı anlamağa, açıq və qapalı iqtisadiyyatın təhlili və müxtəlif nəzəri modellərdən istifadə etməklə təkliflərin verilməsi bacarıqlarına yiyələnməyə istiqamətlənmişdir. |
| **Öyrənmə nəticələri** | Kursu uğurla tamamlayan tələbələr sonda aşağıdakı bacarıqlara yiyələnəcəklər:<br>• *baza iqtisadi anlayışları və onların qarşılıqlı əlaqəsini öyrənmək;*<br>• *iqtisad elminin əsas metodlarından və alətlərindən istifadə etmək;*<br>• *iqtisadi hadisə və proseslərn məzmun və formal təhlili vərdişlərinə yiyələnmək;*<br>• *bazarın işləmə mexanizmini dərk etmək;*<br>• *iqtisadi subyektlərin qərar qəbul etmə prinsiplərini mənimsəmək;*<br>• *əsas makroiqtisadi göstəricilər və milli gəlirin ölçülməsini izah etmək*<br>• *bəzi dövlət siyasəti məsələlərinə iqtisadi prinsipləri tətbiq etmək;*<br>• *iqtisadi artım və iqtisadi inkişaf modellərini təhlil etmək;*<br>• *maliyyə sistemi və maliyyə siyasətini təhlil etmək;*<br>• *işsizlik, milli gəlir və inflyasiya arasındakı əlaqələri təhlil etmək;*<br>• *monetar sistemi və monetar siyasəti təhlil etmək;*<br>• *açıq iqtsiadiyyatın makroiqtisadi təhlilini aparmaq;*<br>• *ümumi makroiqtisadi tarazlıqları təhlil etmək;*<br>• *müxtəlif bazarlarda firma davranışını şərh etmək;*<br>• *müxtəlif tip rəqabət bazarlarını (monopoliya, oliqapoliya, xalis rəqabət) təhlil etmək;*<br>• *müxtəlif bazarlarda (əmək, torpaq, kapital) qiymətin formalaşması prosesini izah etmək;*<br>• *bazarın uğursuzluqları və bazarın iflası nəzəriyyəsini şərh etmək;*<br>• *dövlətin tənzimləməsinin çatışmazlıqlarını və məhdudluqlarını təhlil etmək;*<br>• *gəlirlərin formalaşması prinsiplərini və gəlirlərin yenidən bölgüsü mexanizmini şərh etmək;*<br>• *iqtisadi davranışların qeyri-rasional (irrasional) təbiətini şərh etmək, davranışa təsir edən iqtisadi və qeyri-iqtisadi faktorları təhlil etmək;*<br>• *açıq iqtisadiyyatın giriş səviyyədə əsas problemlərini anlamaq;*<br>• *iqtisad elminin müasir istiqamətlərinə (davranış iqtisadiyyatı, bilik iqtisadiyyatı, institusional iqtisadiyyat, yaşıl iqtisadiyyat, inkişaf iqtisadiyyatı, səhiyyə iqtisadiyyatı və s.) dair biliklər əldə etmək.* |

| | | |
|---|---|---|
| **Tədris metodları** | **Keys (case) təhlili** | x |
| | **Qrup müzakirəsi** | x |
| | **Mühazirə/Təqdimat** | x |
| | **Sokrat metodu** | x |
| | **Problem həll etmə** | x |
| | **Müşahidə və eksperiment metodu** | x |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə meyarları** | **Metodlar** | **Son tarix** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | 8-ci həftə | 30 |
| | **Tədqiqat işi** | 15-ci həftə | 10 |
| | **2 Quiz (hər biri 5%)** | 5-ci və 13-cü həftə | 10 |
| | **Davamiyyət** | | 5 |
| | **Aktivlik** | | 5 |
| | **Final imtahanı** | 16-cı həftə | 40 |
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Qayda** | **Aktivlik**<br>Aktivlik balı tələbələrin mühazirələrdəki fəallıqlarına əsasən verilir.<br>**Davamiyyət**<br>Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı normativ sənədlərdə müəyyən olunmuş həddən (25%) yuxarı olduğu halda tələbə imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu yaranır<br>**Quiz** |

| | |
|---|---|
| | Aralıq və final imtahanlarından öncə quizlər təşkil olunacaqdır. Hər bir quiz 5 (beş) açıq sualdan ibadət olacaq və hər sual 1 (bir) balla qiymətləndiriləcəkdir.<br>**Tədqiqat işi**<br>Tələbələrə müxtəlif iqtisadi mövzular təqdim olunacaq. Hər bir tələbə seçdiyi bir mövzu üzrə tədqiqat işi hazırlayacaqdır. Tədqiqat işi üçün tələblər aşağıdakı kimidir:<br>1. Tədqiqat mətnləri həcmcə **minimum 5, maksimum isə 15-20 səhifə** arasında olmalıdır. Mətnlər Microsoft Word mətn redaktorunda *"Times New Roman"* şriftiylə 14 ölçülü yazılmalıdır.<br>2. Tədqiqat mətni məntiqi cəhətdən **giriş, əsas hissə (təhlil hissəsi) və nəticə hissələrindən** ibarət olmalı, istifadə olunan ədəbiyyat siyahısı göstərilməlidir.<br>3. Tədqiqatın mətni **maksimum 8 bal** üzərindən, təqdimat və sual-cavab hissəsi isə **maksimum 2 bal** üzərindən qiymətləndiriləcəkdir. Tədqiqat işinə toplam 10 bal verilir.<br>Tədqiqat qiymətləndirilərkən aşağıdakılar nəzərə alınacaqdır:<br>➢ köçürmə (plagiat) olmamalıdır (əvvəllər işlənmiş tədqiqatların və ya internet resurslarının materialları qəbul edilməyəcəkdir. Mətnlər plagiat proqramı ilə yoxlanılacaq. Mətnin məzmunu tələbə tərəfindən yazılmalı, araşdırma zamanı tələbələr öz tədqiqatlarının nəticələrini təqdim etməlidirlər);<br>➢ tədqiqat mövzusunda qeyd olunan məsələlər tam əhatə olunmalıdır (mövzunun adına uyğun olaraq problem tam təhlil olunmalıdır);<br>➢ tələbə mövzunu mənimsəməli və axıcı şəkildə şərh etməlidir;<br>➢ təqdimat zamanı verilən suallar əhatəli və dəqiq cavablandırılmalıdır. |

**Tematik plan**

| Həftə | Tarix | Mövzular | Dərslik/Tapşırıq |
|---|---|---|---|
| 1 | | İqtisad elminə giriş: əsas prinsiplər. iqtisadiyyat nədir? Məhdudluq. Alternativ dəyər. İqtisadi seçim. İstehsal imkanları əyrisi. | 1. N.Q.Menkyu. "Ekonomiksin əsasları". Bakı, 2014. Fəsil 1, 2.<br>2. "İqtisadiyyata giriş" fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 1. |
| 2 | | İqtisad elminin tarixi və metodologiyası. | 1. N.Q.Menkyu. "Ekonomiksin əsasları". Bakı, 2014. Fəsil 2.<br>2. "İqtisadiyyata giriş" fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 2. |
| 3 | | İqtisadi sistemlər. Azad bazar mexanizmi: tələb və təklif. | 1. N.Q.Menkyu. "Ekonomiksin əsasları". Bakı, 2014. Fəsil 4.<br>2. "İqtisadiyyata giriş" fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 3. |
| 4 | | Bazar tarazlığı. Qiymətlər. Tələb və təklifin elastikliyi. Dövlətin bazara müdaxləsi. | 1. N.Q.Menkyu. "Ekonomiksin əsasları". Bakı, 2014. Fəsil 5, 6.<br>2. "İqtisadiyyata giriş" fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 4. |
| 5 | | İstehlakçı davranışına giriş: ev təsərrüfatının iqtisadiyyatı. | 1. N.Q.Menkyu. "Ekonomiksin əsasları". Bakı, 2014. Fəsil 21.<br>2. "İqtisadiyyata giriş" fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 5. |

| | | | |
|---|---|---|---|
| 6 | | Firmanın davranışına giriş: istehsal nəzəriyyəsi və istehsal xərcləri. Bazarın rəqabət modelləri. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 13.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 6. |
| 7 | | Bazar uğursuzluqları. Asimmetrik informasiya. İctimai nemətlər. Eksternalilər. Gəlir bərabərsizliyi. Gəlirlərin yenidən bölgüsü. Dövlətin iqtisadiyyatda tənzimləyici rolu. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 10, 11, 20, 22.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 7. |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | Makroiqtisadiyyata giriş: makroiqtisadiyyat nəyi öyrənir? Əsas makroiqtisadi göstəricilər. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 23.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 8. |
| 10 | | Rifah, həyat səviyyəsi və onun ölçülməsi. İqtisadi artım və iqtisadi inkişaf. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 24, 25.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 9. |
| 11 | | Makroiqtisadi qeyri-sabitlik: iqtisadi tsikl və işsizlik. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 28.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 10. |
| 12 | | Dövlət maliyyəsi. Dövlət büdcəsi. Vergi sistemi və fiskal siyasət. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 26, 27, 34.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 11. |
| 13 | | Pul-kredit sistemi. Pul kütləsi və pul bazarı. Pul artımı və inflyasiya. Monetar siyasət. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 29, 30, 34.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 12. |
| 14 | | Makroiqtisadi tarazlıq: məcmu tələb (AD) və məcmu təklif (AS) modeli. **Tədqiqat işi** | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 33.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 13. |
| 15 | | Açıq iqtisadiyyat. Beynəlxalq iqtisadi münasibətlər. Tədiyə balansı. Xarici ticarət. Valyuta münasibətləri. İqtisadi hesablamalar **(praktik məşğələ).** Ekonomiksin elmi metodologiyasından praktiki istifadə. Keyslərlə makroiqtisadi analiz. | 1. N.Q.Menkyu. “Ekonomiksin əsasları”. Bakı, 2014. Fəsil 3, 31, 32.<br>2. “İqtisadiyyata giriş” fənni üzrə mühazirə materialları. H.Rəhimli. Fəsil 14 |

| | | | |
|---|---|---|---|
| | | | 3. M.Eğilmez. “Ekonomide analiz. Örnek Olaylar ve Çözümler”. |
| 16 | | **Final imtahanı** | |